# Dağlar doğmalarına qovuşur

## İndi Kəlbəcər yaylaqlarında özgə büsat var

**Yaman günün ömrü az olar - deyib babalarımız. Amma bizim yaman günlərimizin ömrü uzun oldu. Məşəqqətli aylar payız küləkləri kimi əsir, dərd yüklü, ağrı-acı dolu illər damcı daşı dələn kimi ürəyimizi arı pətəyinə döndərir, qəddimizi əyə-əyə, dizimizi bükə-bükə halımıza, günümüzə acımadan sıralarımızı seyrəldir, acı xatirələr qoyub ötüb keçirdi.**







Biz əsrin üçdəbiri boyunca nələr yaşadıq, nələr. Doğma ev-eşiyindən, isti yuvasından perik salınan bir milyon soydaşımız kürəyində ağır dərd şələsi, ürəyində dözülməz ah-naləsi ilə ölkəmizin yaxın-uzaq bölgələrinə səpələndi. Kimi yük vaqonlarında, kimi qarğı-qamışdan tikilib palçıqla suvanmış daxmalarda daldalandı, kimi qohum-qardaşın, dost-tanışın künc-bucağına sığındı, kimi də dost ölkələrin köməyi ilə yaradılan çadır düşərgələrində, sonradan dövlətin qayğısı ilə inşa edilən qaçqın şəhərciklərində məskunlaşdı.

Harada qərar tutmalarından, harada yaşamalarından asılı olmayaraq, ürəklər eyni dərdlə yüklənir, Qarabağ həsrəti ilə qovrulurdu. Nisgil dolu, həsrət soraqlı 30 il bizi ağır sınaqlara çəkdi. Zaman adlı qazanda ağır sınaqlara dözə-dözə dağ olduq. Milyon-milyon ürəklərin həsrət nəğməsi Qarabağ nəqarətinə kökləndi. Azərbaycan Bakısı, Gəncəsi, Sumqayıtı, Mingəçeviri, Lənkəranı, Qubası, Zaqatalası, Qəbələsi - bütün bölgələri ilə bütövləşib Qarabağa çevrildi. Bu yenilməz vəhdət xalq-dövlət-ordu birliyi oldu. Öz liderinə güvənən, müdrik Prezidentinə inanan xalq onun ətrafında birləşib dövlətin, ordunun gücünə yenilməz güc qatdı.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi islahatlar, beynəlxalq miqyasda reallaşdırdığı uğur diplomatiyası bizi Qarabağa sürətlə yaxınlaşdırırdı və bütöv bir xalqın, tarixə qüdrətli sərkərdələr bəxş etmiş qəhrəman bir millətin 30 il ərzində səbirsizliklə gözlədiyi intiqam məqamı, qisas anı, nəhayət, yetişdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin hücum əmri on milyon ürəkdə əks-səda verdi. Düşmən torpağında inləyən Şuşa, Laçın, Kəlbəcər, Ağdam… atəş səslərinə diksindi. Cıdır düzünə gün doğdu. Murov başındakı duman çalmasını açdı. İsa bulağı vüsal nəğməsi pıçıldadı. Həkəri, Tərtər, Bərgüşad, Qarqar zəfər simfoniyasına kökləndi. 30 ilin yox, 150 ilin intiqamı 44 günə alındı. Həm də ləyaqətlə! Bütün dünyanı heyrətə salan bu möhtəşəm Zəfər Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı. Amma nə edəsən ki, qələbə qurbansız olmur. Hərəsi bir evin ümid çırağı olan neçə qəhrəman oğul itirdik. Məkanları cənnət olsun. Nə qədər övladımız yaralanıb sağlamlığından məhrum oldu. Allah hər birinə şəfa versin. Şəhid ailələri, qazilər, möhtəşəm qələbədə haqqı olan hər kəs bu gün xalqımızın və dövlətimizin qayğı və ehtiram ünvanıdır.

Təbii ki, Zəfər dastanının baş müəllifi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdir. Müzəffər sərkərdənin "dəmir yumruğ"u ilə başı əzilən Ermənistan silahlı qüvvələri darmadağın edilib. Düşmənlərimiz bu gün də rəzil durumdadır. Xam xəyallara uyub yeni müharibə çağırışlarına qoşulsalar, daha sarsıdıcı zərbələr alacaqları şübhəsizdir. Amma bunacan bizim daha vacib hədəflərimiz var, onlarla məşğuluq.

Erməni faşistlərinin 30 il işğal altında saxladıqları, odlara qalayıb viran qoyduqları kəndlər, şəhərlər indi bərpa edilir, yenidən qurulur. Qarabağ və Şərqi Zəngəzur başdan-başa böyük inşaat meydanına çevrilmişdir. Görülən işlərə - tikilən kəndlərə, şəhərlərə, çəkilən yollara, salınan körpülərə, qazılan tunellərə baxdıqca könlümüz məmnunluq və qürur hissi ilə dolub-daşır.

Dünən bizi şanlı qələbəyə qovuşduran Zəfər strategiyasının müəllifi, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu gün Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulmasına dair möhtəşəm layihənin baş memarıdır. Prezident sonsuz vətən sevgisi ilə azad etdiyi doğma yurdumuzun hər qarışını cənnətə çevirmək üçün bütün enerjisini sərf edir, düşmənin söndürdüyü ocaqları yenidən alovlandırır, gündən-günə Böyük qayıdışı sürətləndirir.

Lakin üstünə gün doğan, üzü gülən, canlanan təkcə yollar, körpülər deyil. İndi qədim yurd yerlərimizdə, allı-güllü yaylaqlarımızda da özgə büsat var. Dağların üzü gülür, illərlə doğma sahiblərinin isti nəfəsinə həsrət qalan, qoyun-quzu mələrtisi eşidilməyən yaylaqlarımız canlanır. Yenə yaşıl yamaclarda dəyələr qurulub, yenə qız-gəlinlər səhəng götürüb bulağa gedir, sac asıb yuxa bişirir, yenə keçilməz gədiklərdə atlar kişnəyir. Beləcə təhlə-tərəkəmə camaatının həsrəti sona yetir. Doğmalarına qovuşan dağların üzü gülür, eyni açılır.

Səfər yoldaşım, həmsöhbətim tərəkəmə elinin sayılıb seçilən yetirmələrindən olan İlyas Hacıyevdir. İlyas müəllim zəngin həyat təcrübəsinə malik ziyalıdır. Uzun müddət müxtəlif rəhbər vəzifələrdə çalışıb. İndi təqaüddədir.

İlyas müəllim maraqlı söhbəti ilə yolumuza körpü salır:

- Bu yerlər mənə çox doğmadır. Qayğısız uşaqlığım, qaynar gəncliyim Kəlbəcərin məşhur Sarı yer yaylağında keçib. Burada hər cığır, hər qaya, hər daş mənim üçün bir xatirədir. Cənnət Qarabağımız işğaldan azad olunandan sonra artıq neçənci dəfədir ki, qüdrətdən sənğərli, qalalı bu dağları övlad məhəbbəti ilə ziyarət edirəm. Atalarımız, babalarımız yüz illər boyu bu yolları əriş-arğac ediblər, yayda yaylağa, qışda qışlağa köçüblər. Erməni faşistlərinin işğalçılıq siyasəti kəndlərimizi, şəhərlərimizi viran qoymaqla yanaşı, bizim ellərin yaylaq-qışlaq köçünü də pozdu. Şükürlər olsun ki, artıq 4 ildur buna son qoyulub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz şeytan xislətli nankor qonşularımızdan tökdükləri nahaq qanların qisasını layiqincə alaraq doğma yurdumuzu işğaldan azad edib. Təbii ki, bununla bütün xalqımızla bərabər, tərəkəmə camaatının da üstünə gün doğub. Zirvələrində qartalların qıy vurduğu, durnagözlü bulaqları diş göynədən, şəlalələri illər boyu həsrət nəğməsi oxuyan, yaşıl yamacları qoyun-quzu xiffəti çəkən dağlarımıza qovuşmuşuq. İnsan həyata bir dəfə gəlir. Səmimiyyətimə inanın, şanlı Zəfər sanki bizi dünyaya yenidən gətirib. Həm də son dərəcə fərqli düşüncədə. Əvvəllər o qədər də əhəmiyyət vermədiyimiz daşa-qayaya, yola-rizə, gülə-çiçəyə indi təşnələr kimi baxırıq. Bu yerlər bizim üçün çox müqəddəsdir. Ata-babalarımızın, doğmalarımızın məzarları burdadır. Qələbədən sonra el-oba tökülüb gəldi, uzun illərdən bəri baxımsız qalan qəbiristanlıqda səliqəsahman yaradıldı. Tərəkəmə camaatının bu gün də ehtiramla xatırladığı atam Xəlil kişinin də məzarı burdadır. Allah hamısına rəhmət eləsin. Şükürlər olsun bu günümüzə. İnşallah gedib çatarıq, üzü gülən dağların büsatını özünüz görərsiniz.

Tərtər çayının şirin vüsal nəğməsini dinləyə-dinləyə, dağların başına dolana-dolana gəlib Kəlbəcərə çatırıq. Daha köhnə Kəlbəcərdən əsər-əlamət qalmayıb. İndi dağların qoynunda möhtəşəm şəhər salınır. Milli arxitekturaya o dərəcə də üstünlük verilir ki, elə ilk baxışdaca buranın Azərbaycan şəhəri olduğuna şübhə qalmır. Dümdüz küçə boyunca yaraşıqlı binalar sıralanır. Müasir tələblərə cavab verən sosial infrastrkuturun yaradılması da diqqət mərkəzindədir. İnşaat işləri çox sürətlə gedir.

Yenidən Tərtərin sahilinə qayıdıb yolumuza davam edirik. Buradan məşhur İstisu qəsəbəsinə az bir məsafə qalır. Bir neçə dəqiqədən sonra qarşımızda gözəl bir mənzərə açılır. Təbiətin möcüzəsi, min bir dərdin dərmanı olan məşhur "İstisu"yu qablaşdırmaq üçün burada böyük istehsal gücünə malik müasir zavod tikilir. İnşaatçılar zavodu tezliklə istismara vermək üçün sözün həqiqi mənasında zərbəçi əmək nümunəsi göstərirlər. Çox keçməyəcək ki, bu faydalı mineral suyu ən yaxın marketlərdən ala biləcəyik. İnsan sağlamlığına əvəzsiz faydası olan bu mineral suyun ixracı da nəzərdə tutulur. Qəsəbədə sanatoriya tikintisi də sürətlə davam edir. Hələ sovetlər dönəmində İsti su sanatoriyası ittifaq miqyasında böyük şöhrət qazanmışdı. Erməni işğalçılarının viran qoyduğu sanatoriya indi dünyanın məşhur kurortları səviyyəsində, yüksək zövqlə yenidən qurulur. Heç şübhəsiz, ən yaxın gələcəkdə "İstisu" sanatoriyası öz təbii möcüzəsi ilə əcnəbi turistlərin böyük marağına səbəb olacaqdır.

Gördüklərimizin yaratdığı məmnunluq hissi ilə, xoş təəssüratlarla yolumuza davam edirik. Məşhur İstisu dolamalarını qalxıb Taxta düzünə çatırıq. Sonra Tatallar çayını keçib geniş bir düzəngaha çıxırıq. Buradan müxtəlif istiqamətlərə yollar ayrılır - Ceyran bulağına, Gəlin qayasına, Əyri qara, Pişikli obasına, Qara arxaca, Sarı yer yaylağına...

Bizi Sarı bulağın başında gözləyirdilər. Tərəkəmə süfrəsi çox fərqli olur. Quzu kababı, şalampır, motal pendiri, çaşır şorabası, lavaş və digər naz-nemətlər öz yerində. Xoş üz, böyük səmimiyyət, isti ürək adamı sehirli bir aləmə salır elə bil…

Köhnə tanışlarımızla yeni ovqatda görüşürük. Ata-baba sənətini sevə-sevə yaşadan Əfqan Məmmədov çiynindəki yapıncını çəmənliyə atıb gülər üzlə qarşımıza çıxır:

- Ayə, gözləməkdən gözümüz saraldı, gəlib çıxın da...

Üzünü cavan çobanlara tutub ucadan səslənir:

- Ay uşaqlar, daha nə gözləyirsiniz, tez tərpənin, quzunu kəsin, ocağı qalayın.

Dillər əzbəri Sarı bulaq, nə xoş ki, səninlə uzun illərin ayrılığından sonra yenidən görüşürük. Doğma Sarı bulağın suyu yenə də buz kimidir. Əlimizi, üzümüzü yuyur, diş göynədən suyundan ovuc-ovuc içirik. Varlığımıza qeyri-adi bir rahatlıq çökür, könlümüzdə şanlı Zəfəri gerçəkləşdirənlərə sonsuz minnətdarlıq hissi oyanır. Sanki Əfqan kişi bunu duyurmuş kimi ürəyimizdən keçən minnətdarlıq duyğularını hər kəsin eşidə biləcəyi gur səslə dilə gətirir:

- Qəhrəman Azərbaycan əsgərlərinə, xalqımızın güvən yerinə çevrilmiş Ali Baş Komandana borcluyuq. Onlar təkcə Qarabağı, Şərqi Zəngəzuru azad etmədilər, həm də bizi xəcalətdən, töhmətdən qurtardılar. Şükür Allaha, indi elimizdə-obamızda hər gün elə bil toy-bayramdı. Mən adi çobanam. Ürəyimdən keçəni demək istəyirəm. Çoban da, fəhlə də, məmur da qələbəmizi qorumaq, onu əbədi etmək üçün bu gün heç nəyini əsirgəməməlidir.

Sarı bulağın başında çoban qardaşlarımızla şirin söhbət könlümüzə rahatlıq gətirir, yolun yorğunluğunu canımızdan çıxarır. Öyrənirik ki, Əfqan Məmmədov Bərdə rayonunun Şərəfli kəndindəndir. Atası Alyoşan kişi tərəkəmə elinin sayılıb-seçilən kişilərindən olub. Əfqan 5 qardaşı ilə birgə Bərdə özünümüdafiə batalyonunda döyüşüb.

Yaşıl yamacda sıra ilə düzülmüş şəhid pannoları diqqət çəkir. Kəlbəcər yaylaqlarının işğaldan azad edilməsi uğrunda ağır döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib əbədiyyətə qovuşanlardan biri də tərəkəmə camaatının sevimlisi Ağamməd Məmmədovun oğlu döyüşlərdə xüsusi döyüşçü kimi iştirak etmiş Natiq Məmmədlidir. Ağamməd kişi dərd ortağı, həyat yoldaşı Fatma xanımla oğlu Namiqin döyüşdüyü, şəhid olduğu yerləri tez-tez ziyarət edir, elin-obanın xoş növrağını görüb təsəlli tapır.

Yol yoldaşım İlyas Hacıyev araya çökən ani sükutu pozur:

- Elimizin qədirbilən olması könül rahatlığıdır. Elat yaylağa qalxandan bəri şəhidlərin adına neçə dəfə heyvanlar kəsilib, ehsanlar verilib. Məmnunluq yaradan odur ki, adamlar bişirdikləri yeməklərin dadına baxmamış dolu qazanları bölgədə xidmət edən əsgər övladlarımıza çatdırırlar.

Çobanlarla görüşümüz işgüzar xarakter alır. Maraqlı təkliflər səslənir. Dedilər ki, burada mövsümi baytarlıq xidmətinin təşkili ümumi işin xeyrinə olar. Kolxoz zamanında yaylaqlara avtodükanlar gündəlik tələbat malları gətirər, heyvandarların ehtiyaclarını yerindəcə ödəyərdi. Bir də çobanlar da insandır, onlar da xəstələnirlər. O üzdən özəl klinikaların, dövlət səhiyyə müəssisələrinin ambulansları ara-sıra həkimləri yaylaq obalarına gətirsə, pis olmaz.

Unutmayaq ki, çobanın min bir əziyyətlə bəslədiyi mal-heyvan təkcə özünün dolanışığı üçün deyil, hər birimizin firavan həyatı, xoş güzəranı, ölkəmizdə ərzaq bolluğu yaratmaq üçündür.

Əlvida demirik, çoban qardaş. Tezliklə yenidən görüşəcəyik.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 16 avqust (№174).- S.8.